# Sərdarabad faciəsi

**İnkaredilməz həqiqətdir ki, I Dünya savaşı baş verən zaman baş kəsmək, qan tökmək hesabına "erməni məsələsi"ni həll etmək və nəyin bahasına olursa-olsun "Böyük Ermənistan" yaratmaq naminə müxtəlif ərazilərdən səfərbər olmuş 250 mindən artıq erməni silahlıları 1914-cü il noyabrın 4-də Cənubi Qafqazdakı rus işğalçı qoşunları ilə birləşərək Türkiyə ərazisinə soxuldular. Ayın 8-də Ərzurum sancağında yerləşən Körpüköyü tutdular. Birləşmiş qoşunlar eyni zamanda qüvvələri səfərbər etməklə 1915-ci il yanvarın 3-4-də Sarıqamışı, 1916-cı il fevralın 16-da Ərzurumu, martın 17-də İsfahanı, aprelin 18-də Trabzonu zəbt etdilər. Mayın 2-3-də Xoy və Dilmanda yerli əhaliyə divan tutdular. Van və Urmiya gölləri aralığındakı əraziləri oda qaladılar, iyunun 25-də Ərzincanı, iki gün sonra isə Muş bölgəsini ələ keçirdilər. Həsənqala, Sarıqamış, Ərdahan, Qars, İzmir, Ərzincan, Trabzon və s. yerlərdə rus-erməni əsgərləri müsəlman yaşayış məntəqələrini yerlə-yeksan edir, yandırır, əhalini isə fərqinə varmadan qılıncdan keçirirdilər. Silahsız, dinc əhalini zor gücünə tövlələrə, məscid və evlərə doldurur, diri-diri od vururdular. Qoca və uşaqları torpağa basdırır, hamilə qadınların qarnını yarıb körpə balalarını çıxarıb boğur, parça-tikə edib odda bişirir və anaları öz balalarının ətindən yeməyə məcbur edirdilər.**

**Mürsəl İRƏVANLI**

*(Əvvəli ötən sayımızda)*



Yazıda daha sonra oxuyuruq: "Erməni generalı Areşevin və kapitan Mosesyanın başçılıq etdikləri dəstələrin törətdikləri vəhşiliklər nəticəsində təkcə Qars vilayətində axıdılan qanların miqyası ölçüyə gəlməzdi. Bu bölgədə faciə 1915-ci ilin əvvəlindən başlamışdı. Hazırda Qars vilayətinin bütün ərazisi nəhəng bir qəbiristanlığı xatırladır ki, onun hər bir daşı həmişəlik insan simasını itirmiş erməni quldurlarının vəhşilikləri, əxlaqsızlıqları və həyasızlıqları barədə şahidlik edir"...

Qars vilayətində erməni vandallarının törətdikləri vəhşilikləri izləyən amerikalı tarixçi yuxarıda göstərilən əsərinin bir köşəsində belə yazır: «Türk ordusu qarşısında duruş gətirməyib geri çəkilən silahlı erməni quzğunları ətrafdakı müsəlman kəndlərini yer üzündən silərək hər bir şeyi atəş və qılıncdan keçirir, təsəvvürə gəlməz bir dəhşət və fəlakət törədirdilər.

"Qalib erməni ordusu hərbi qənimətləri, yəni süngü ucuna taxılmış südəmər uşaqlarla keçdikləri yolların ətrafına lüt soyundurulmuş müsəlman qadınları düzürdülər. Bu cəhənnəm əzabından ağlını itirmiş qadın və uşaqların ürək parçalayan iniltilərini, qocaların ümidsiz baxış və nalələrini dinləmək üçün adamın qəlbi daş olmalıdır. 62 kənddən ibarət bir sancaq təsvir edilən fəlakətə düçar olmuşdu".

Yazıda daha sonra oxuyuruq: "Erməni generalı Areşevin və kapitan Mosesyanın başçılıq etdikləri dəstələrin törətdikləri vəhşiliklər nəticəsində təkcə Qars vilayətində axıdılan qanların miqyası ölçüyə gəlməzdi. Bu bölgədə faciə 1915-ci ilin əvvəlindən başlamışdı. Hazırda Qars vilayətinin bütün ərazisi nəhəng bir qəbiristanlığı xatırladır ki, onun hər bir daşı həmişəlik insan simasını itirmiş erməni quldurlarının vəhşilikləri, əxlaqsızlıqları və həyasızlıqları barədə şahidlik edir". Yazıq millət, gör başın nə bəlalar çəkib? Görəsən, hansı günahı işlətmişdin, kimin bostanına daş atmışdın sən? Bu tarixdir, xalqın qanı ilə yazılmış tarix. Əziz həmvətənlər! Bu olayları unutmaq çətindir, vallah, çətindən çətin "yaza bilmirəm". Bu filçəkməz dərd barədə yuxarıda qeyd etmişdik ki, erməni silahlı quldur dəstələri Türkiyə ərazisindən çıxmağa məcbur olunduqdan sonra Qafqaz istiqamətinə hərəkətdə olarkən yollarını əsas etibarı ilə Qars-Aleksandropola (Gümrü) yönəltdilər. Bölgədəki Ağbaba, Hacı Bayram, Qızılqoç, Talin, Sürməli, Qurdqulu, Əştərək, İğdır, Kərimarx, Sərdarabad və Qərbi Azərbaycanın digər mahallarının kənd və şəhərlərini qarət etməklə, əhalini qıraqıra İrəvana yaxınlaşırdılar. Bu qırğınlardan ən dəhşətlisi Sərdarabad qalası və onun ətrafında baş vermişdi.

Qafqazda (oktyabr çevrilişindən sonra) hələlik heç bir hökumətin olmamasından və nəzarətsizlikdən məharətlə istifadə edən erməni dəstələri 1918-ci il mayın 22-də öz hərbi qüvvələrini cəmləşdirərək Sərdarabad üzərinə irimiqyaslı hücuma keçdilər.

Birləşmiş qoşunlara komandanlıq edən Silikov (V.X.Silikyan) (general), polkovnik Artaşes Pirumyan, podporuçik Viqen Oskanyan, podpolkovnik Robert Saribekyan, podpolkovnik rütbəsində yezidi kürdü Hasan Paşayan, polkovnik Qareqin Qarakeşişyan, kəşfiyyat rotasının komandiri Ohanes Baqramyan və başqa komandirlər tezliklə Sərdarabad torpaqlarını ələ keçirəcəklərinə möhkəm inam bəsləyir, hərbi təzyiqi hər an artırırdılar.

Sözə qüvvət: Ağrıdağı çökəkliyində, Çuxur səd (İrəvan) çuxurundakı digər mahallar kimi Sərdarabad mahalının ərazisi də qədimlərdən üzü bəri bu bölgədə mövcud olmuş bir sıra qüdrətli dövlətlərin ayrılmaz bir parçası kimi mövcud olmuşdur.

Yazılı mənbələrin şəhadətinə görə Sərdarabad kənd-obasının əsası Səlçuq türk dövlətinin sultanı Alp Aslanın zəmanəsində qoyulmuşdur. Alp Aslan 1071-ci il avqustun 27-də oğlu Əbu Səidlə çiyin-çiyinə Malazgirt yaxınlığında bir həftə davam edən qanlı savaşda xristian Bizans imperatorunun çoxsaylı ordusunu darmadağın etmişdir. Bu çarpışmada imperator IV Romanos Dioqenes yaralanmış və köhnə döyüşçü Sərdar tərəfindən əsir alınmışdır. İmperatorla bərabər yüksək rütbəli zabitlər, hətta bir çox generallar da əsir düşmüşlər. Onların arasında erməni generalı Basikakis də var idi.

Qolları bağlı imperatoru və qeyriləri sultanın hüzuruna gətirirlər. Sultandan xeyli yaşlı olan imperator ağlayaraq türk fatehinin ayaqlarına döşənir və əfv olunmasını diləyir. Ədalətli və uzaqgörən sultan imperatorla bərabər bir çoxlarını da bağışlayır. Əfv edilən imperator son anda belə deyir: 'Ey qəhrəman türk oğlu! Məni əsir etməklə mənən öldürmüşdün. İndi əfv etməklə, göstərdiyin fəzilətlə bir daha məğlub edir, bir daha məni öldürürsən".

Sultan göstərdiyi xidmət və igidliyinə görə döyüşçü Sərdara ənam verməklə bərabər, həmçinin Araz çayı kənarında ona böyük bir ərazi də bağışladı.

Beləliklə də, sonralar həmin ərazidə Sərdar öz adına layiq yaraşıqlı bir kənd saldı. Zaman-zaman kənd ərazisini genişləndirərək böyük bir mahala çevrildi. Rəvvadilər, Atabəylər, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvilər, Qacarlar və s. dövlətlərin, sonralar isə İrəvan xanlığının 15 mahalından biri olub. Xanlıq əraziləri, o cümlədən Sərdarabad da Rusiya tərəfindən işğala məruz qaldıqdan sonra İrəvan quberniyasının Sərdarabad nahiyəsi, Sovet hakimiyyəti dövründə isə 1936-cı ildən Ermənistan SSR-in Oktemberyan rayonu, 1992-ci ildən Armavir mahal mərkəzidir. Bax belə təpədən dırnağadək silahlanmış 10 mindən artıq erməni əsgərləri qalanı ələ keçirmək üçün müxtəlif istiqamətlərdən hücum təşkil edərək ağır döyüşlərə başladılar. Araz çayının hər iki sahilini birləşdirən piyada körpülər partladılmış, türk ordusunun Sərdarabadı müdafiə edən Şövqü Şövkət Paşanın dəstələri ilə əlaqə kəsilmişdi. Körpülü, Ayqır, Qurdqulu, Qəmişli, Hacıbayram, İydəli, Zey və s. yaşayış məntəqələri oda qalanmışdı. Birləşmiş ordular Sərdarabad ətrafında cəmləşdirilmişdi. Düşmən türk cəngavərlərini üzük qaşı kimi dövrəyə almışdı. Qızğın və inadlı döyüşlər ara vermirdi.

Nəhayət mayın 24-27-də (1918-ci il) erməni cəlladları həlqəni daraldaraq Sərdarabad qalasına soxula bildilər. Bu mübarizədə bölgənin yüz minlərlə əsgər və mülki əhali həlak oldu və ağır yaralar aldılar. Bu yerlərdə tarix boyu ermənilər yaşamadıqlarına baxmayaraq ələ keçirdikləri Sərdarabad qalasının yerində "1915-ci il erməni soyqırımı" abidə kompleksi yaradılıb.

Abidə 1964-cü ildə Sovet hökumətinin "xeyir-duası" ilə inşa olunub. Türkün sümükləri üstündə bərqərar olan bu abidə kompleksinin daxilində və ətrafında babalarımızın, nənə və dayılarımızın, günahsız körpələrin ruhu dolaşmaqdadır. Biz bacarıb bağışlasaq da, müqəddəs ruhlar onları olmazın bəlalara düçar edən müxənnət düşmənləri heç zaman bağışlamayacaq. Təki belə olsun Allah rəhmət eləsin.